**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Ağayev Cavanşir Sahib oğlunun, Nəzərov Ramazan Fərman oğlunun və digərlərinin 4 yanvar 2010-cu il tarixli 388 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 75 saylı Lənkəran-Masallı seçki dairəsi üzrə Şatıroba bələdiyyəsinin üzvlüyünə namizədlər Fətiyev Qəzənfər Kişi oğlu, Nəzərov Yaşar Vəlihəd oğlu, Hüseynov Rövşən Mütəllim oğlu, Ağayev Cavanşir Sahib oğlu, eləcə də 75 saylı Lənkəran-Masallı seçki dairəsinin 31 saylı Şatıroba kənd seçki məntəqəsində müşahidəçi olmuş Nəzərov Ramazan Fərman oğlu, Əliyev Yasər Həmşəri oğlu, Əzizov Etibar Alxas oğlu, Ağayev Salman Mirzəli oğlu, Fətullayev Müştaba Yadi oğlu 4 yanvar 2010-cu il tarixdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına müraciət edərək, müvafiq seçki dairəsi üzrə bələdiyyənin ərazisində səsvermənin nəticələri müəyyənləşdirildikdən sonra bəzi seçki subyektlərinin hüquqlarının pozulduğunu bildirmiş və qanunla müəyyən olunmuş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətdə göstərilən halların dairə seçki komissiyaları tərəfindən araşdırılmalı olduğunu nəzərə alaraq, şikayətlər aidiyyəti üzrə araşdırılması və tədbir görülməsi üçün müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarların qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Ağayev Cavanşir Sahib oğlunun, Nəzərov Ramazan Fərman oğlunun və digərlərinin 4 yanvar 2010-cu il tarixli 388 saylı müraciəti aidiyyatı üzrə baxılması üçün 75 saylı Lənkəran-Masallı seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərarın icrası barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |